

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 61 (22.972)

5 aprel 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Fələstin Dövlətinin xarici işlər naziri Riad Malkini qəbul edib.

* * *

Dövlətimizin başçısı həmin gün İordaniya Haşimilər Krallığının informasiya və kommunikasiya üzrə dövlət naziri Mohammad əl-Momanini qəbul edib.

* * *

Prezident İlham Əliyev aprelin 4-də Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvilini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Ənvər Qarqaşın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Dövlətimizin başçısı aprelin 4-də Hindistan Respublikasının xarici işlər naziri Suşma Svaracın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## Muxtar respublikada gənclər siyasəti uğurla həyata keçirilir

### Bu il ölkəmizin Gənclər Paytaxtı olan Naxçıvanda təşkil ediləcək bir sıra əhəmiyyətli tədbirlər də bunun təzahürüdür



***Müstəqilliyin, dövlətçiliyin möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Ölkəmizdə gənclərlə bağlı görülən işlər Azərbaycan gəncliyinin inkişafına təkan verib, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynayıb. Apardan məqsədyönlü siyasətin nəticəsində respublikamızda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə və milli düşüncəyə malik gənclər formalaşıb.***

Ölkə başçısı cənab İlham Əliyevin 2017-ci il sentyabr ayının 15-də "Azərbaycan gəncliyi 2016-2021-ci illərdə" Dövlət Proqramının təsdiq edilməsi haqqında imzaladığı Sərəncam gənclərə göstərilən dövlət qayğısının növbəti təzahürüdür. Dövlət proqramına uyğun olaraq 2018-ci ildə onlayn səsverməyə əsasən ölkəmizin 23 şəhər və rayonu arasından Naxçıvan şəhərinin Gənclər Paytaxtı seçilməsi gənclər siyasətinin muxtar respublikada uğurla aparıldığının bəhrəsidir.

Muxtar respublikada dövlət gənclər siyasəti beynəlxalq müstəvidə bir modeldir. Bunu Naxçıvana gələn xarici qonaqlar da xüsusi vurğulayırlar. Çünki Naxçıvanda gənclərin fəaliyyəti üçün yaradılan geniş imkanlar bu təbəqəni cəmiyyətin avanqard qüvvəsinə çevirib. Dövlətin diqqət və qayğısı sayəsində gənclər təşkilatlarının dövlət gənclər siyasətində iştirakını təmin edən hüquqları genişləndirilib, onların layihə və proqramlarına mütəmadi dəstək verilir. Bu gün "Azərbaycan gəncliyi 2016-2021-ci illərdə" Dövlət Proqramına uyğun olaraq muxtar respublikada gənclər siyasəti daha səmərəli həyata keçirilir, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakı təmin edilir. Eyni zamanda gənc nəslin sağlamlığının qorunmasına, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqət gündən-günə daha da artırılır, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə edilir.

Sağlam cəmiyyətin formalaşmasında naxçıvanlı gənclərin üzərlərinə mühüm vəzifələr düşür. Belə ki, gənclərimiz, sadəcə, aid olduğu cəmiyyəti deyil, eyni zamanda ölkəmizin gələcəyinin qurulmasında da müstəsna rol oynayırlar. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov gənc nəslin əsl vətəndaş kimi yetişdirilməsi zərurətini qeyd edərək deyib: ***"Biz gələcəyimizin formalaşması qayğısına bu gündən qalmalıyıq. Muxtar respublikamızın gələcəyi bugünkü gəncliyin təhsilə nə dərəcədə yiyələnməsindən, tariximizi, dilimizi, adət-ənənələrimizi necə öyrənməsindən, milli dəyərlərimizi hansı səviyyədə mənimsəməsindən, əsl vətəndaş kimi formalaşmasından asılıdır. Gənc nəsil vətənpərvərlik, Azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tarixi-mədəni irsimizə, milli və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunmalı, onlar öz intellektual və yaradıcı potensiallarını müstəqil Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafına sərf etməlidirlər".***

Bu gün respublika gəncləri Naxçıvanı ölkənin Gənclər Paytaxtı seçməklə Azərbaycanın ictimai-siyasi həyatında öz sözlərini demiş oldular. Bəs bu müddət ərzində muxtar respublikada hansı tədbirlər keçiriləcək?

Hazırlanmış tədbirlər planına əsasən il ərzində gənclər arasında intellektual oyunların, muxtar respublikanın rayonlarında gənclərin toplantılarının və Naxçıvan şəhərində muxtar respublika gənclərinin VIII konfransının, "Naxçıvan Gənclər Paytaxtıdır" fotomüsabiqəsinin, gənclərə vətənpərvərlik hisslərinin aşılanması, çağırışyaşlı gənclərin hərbi hazırlığı məqsədilə peyntbol üzrə muxtar respublika çempionatının, "Gənclik" Mərkəzində gənc ifaçıların konsert proqramının və "Hünər" XII vətənpərvərlik mahnıları festivalının keçirilməsi, həmçinin "Naxçıvanı tanıdaq" devizi altında muxtar respublikanın turizm potensialını əks etdirən foto və videoçarxların sosial şəbəkələrdə yerləşdirilməsi kimi əhəmiyyətli tədbirlər nəzərdə tutulub.

Əlamətdar günlərlə əlaqədar olaraq may ayında gənclərin "Qurtuluşdan Əlincəqalaya" devizi altında yürüşü, ümummilli lider Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin gənclər arasında geniş təbliğ edilməsi məqsədilə "Azərbaycançılıq və gənclik" adlı təbliğat kampaniyası keçiriləcək. İyun ayında "Gənclər ətraf mühitin çirklənməsinə yox deyir" devizi altında aksiyalar, 12 avqust – Beynəlxalq Gənclər Günü və 10-17 noyabr – Beynəlxalq Tələbə Gənclər Həftəsi ilə bağlı tədbirlər, iyul və avqust aylarında isə gənclərin yay məktəbləri təşkil olunacaqdır.

Ən mötəbər tədbirlərdən olan Naxçıvan şəhərində "Avropa günləri" və Türk Şurası Gənc Liderlər Forumu bu il sentyabr və noyabr aylarında keçiriləcək. Eyni zamanda yeniyetmələr arasında "Xəmsə" milli intellektual oyunu üzrə VI Azərbaycan çempionatının final mərhələsi də noyabr ayında Naxçıvanda təşkil olunacaq.

Keçiriləcək bütün tədbirlər artıq Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin birgə hazırladığı tədbirlər planında öz əksini tapıb.

Gənclər Paytaxtı olduqca böyük və uğurlu, eyni zamanda yüzlərlə gənci birləşdirən bir layihədir. Cari ildə muxtar respublikamıza xeyli gəncin səfər etməsi gözlənilir. Bütün tədbirlərdə, keçirilən konfranslarda olduğu kimi, Naxçıvanın tarixi və mədəniyyətini onlara təqdim və izah etmək mütləqdir. Bu, hər bir naxçıvanlı gəncin vətəndaşlıq borcudur.

Təşkilatçılar "Naxçıvan Gənclər Paytaxtı – 2018" fəaliyyət planına daxil olan layihələri, əsasən, bu prioritet sahələrə istiqamətləndiriblər: gənclərin cəmiyyətdə fəal iştirakı, onların məşğulluğu, təhsili, yerli və ölkədaxili idman yarışlarının təşkili və sosial rifahı.

Ölkə Prezidenti cənab İlham Əliyev gənclərə olan münasibətini belə ifadə edib: ***"Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".*** Ölkə gəncləri də, öz növbəsində, bütöv və müstəqil Azərbaycan naminə Vətənin inkişafı üçün səylə çalışmalı, ölkə Prezidentinin etimadını həmişə doğrultmalıdırlar.

Ceyhun MƏMMƏDOV

***Aprelin 4-də Naxçıvan Şəhər Ağsaqqallar Şurasının konfransı keçirilib.***

## Naxçıvan Şəhər Ağsaqqallar Şurasının konfransı olub



Konfransa şuranın üzvü Qurban Nabatov sədrlik edib. Gündəlik təsdiq edildikdən sonra Naxçıvan Şəhər Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü Əziz Hacıyevin hesabat məruzəsi dinlənilib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində bu gün Naxçıvanda bütün sahələrdə yüksək nailiyyətlər qazanılıb. Əldə edilən uğurlar Naxçıvan şəhər ağsaqqallarının, ahıl vətəndaşların sosial vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub.

Vurğulanıb ki, şura hesabat dövründə fəaliyyətini düzgün istiqamətdə qurmağa çalışıb, Naxçıvan şəhərində aparılan quruculuq işlərinin, əldə olunan inkişafın əsas təbliğatçısı olub, milli və mənəvi dəyərlərimizin qorunması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində bir sıra işlər görüb.

Konfransda İdarə Heyətinin 5 nəfərdən ibarət yeni tərkibi seçilib. Naxçıvan Şəhər Ağsaqqallar Şurasının üzvü Zöhrab Axundov Qadir Həsənovun şuranın sədrliyinə namizədliyini irəli sürüb. Təklif səsə qoyulub və qəbul olunub.

Qadir Həsənov göstərilən etimada görə minnətdarlığını bildirərək qeyd edib ki, şura bundan sonra da fəaliyyətini gənc nəslin tələbləri səviyyəsində quracaq, gənc nəsillə bağlı işə diqqət artırılacaq, vətənpərvər gəncliyin yetişdirilməsi, milli dəyərlərimizin, adət-ənənələrimizin yaşadılması istiqamətində ardıcıl iş aparılacaqdır.

Konfransda Naxçıvan Şəhər Ağsaqqallar Şurasının Nəzarət-təftiş komissiyasının yeni tərkibi müəyyən olunub və 3 nəfər komissiyanın üzvlüyünə qəbul edilib. Nadir Hümbətov Nəzarət-təftiş komissiyasının sədri seçilib. Müzakirə olunan məsələlərlə əlaqədar hazırlanmış qərar layihəsi oxunub və səs çoxluğu ilə qəbul olunub.

Konfransda Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədri Məmməd Məmmədov və Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Sərdar Salahov çıxış edərək Naxçıvan Şəhər Ağsaqqallar Şurasının sədrini, İdarə Heyətini və Nəzarət-təftiş komissiyasına yeni seçilən üzvlərini təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıblar.

Nail ƏSGƏROV

## Pensiyaların poçt məntəqələrində verilməsinə başlanılıb

Bu gün bütün sahələrdə olduğu kimi, poçt sahəsi də dövlətimiz tərəfindən yüksək qayğı ilə əhatə olunub. 2013-cü ildə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması ilə bu sahədə köklü islahatların həyata keçirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, hər il yeni rabitə evlərinin istifadəyə verilməsi, əhalinin müasir poçt-maliyyə xidmətlərinə olan tələbatının təmin edilməsi üçün geniş imkanlar yaratmışdır. Hazırda "Naxçıvanpoçt" MMC-nin muxtar respublikanın bütün yaşayış ərazilərini əhatə edən 179 poçt məntəqəsi fəaliyyət göstərir. Bütün poçt məntəqələri fiber-optik əsaslı yüksəksürətli telekommunikasiya şəbəkələri və kompüter avadanlıqları ilə təmin edilmişdir. Poçt məntəqələrində ənənəvi poçt xidmətləri ilə yanaşı, telefon haqlarının, elektrik, qaz, sudan istifadə haqlarının, Yeni Azərbaycan Partiyasının üzvlük haqlarının, Dövlət Sosial Müdafiə Fondunun ödənişlərinin, bank kredit borclarının, bələdiyyə ödənişlərinin, Dövlət Yol Polisi cərimələrinin qəbulu həyata keçirilir.

Bu işlərin davamı olaraq 2018-ci ilin mart ayından etibarən bütün poçt məntəqələrində əmək pensiyalarının verilməsinə başlanılıb. Pensiyasını yaşadığı ərazidəki poçt məntəqəsindən almaq istəyən vətəndaşlar müvafiq ərizə formasını doldurub, poçt məntəqəsinə təqdim etməklə növbəti aydan pensiyalarını buradan ala bilərlər. Poçt məntəqələrində təşkil edilən yeni xidmət vətəndaşlara imkan yaradır ki, pensiyasını almaq üçün rayon mərkəzinə və ya hər hansı bankomat olan yerə getmədən, yaşadıqları ərazidə əlavə vaxt və vəsait itirmədən ona çatacaq müavinəti rahatlıqla alsınlar.

Pensiyaların vətəndaşlara çatdırılması işinin asanlaşdırılması, dövlətimizin əmək adamlarına göstərdiyi qayğının daha bir nümunəsidir.

*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti*

*İcmal*

# İctimai həyatın bütün sahələrində yüksək tərəqqiyə nail olan muxtar respublikada qarşıya qoyulan strateji hədəflər uğurla reallaşdırılır

## *Ötən ayın nəticələri də belə deməyə əsas verir*



***Naxçıvan Muxtar Respublikası blokada vəziyyətində yaratdığı özünəməxsus inkişaf modelinin baza əsaslarının, eləcə də inkişaf konsepsiyasının formalaşması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə sıx bağlıdır.***

Ötən müddətdə elmin, təhsilin, iqtisadiyyatın modernləşməsinə, cəmiyyətdə mövcud olan resurs və potensialın bütün istiqamətlərdə reallaşdırılmasına yönəlmiş fəaliyyət, aparılan islahatlar, həyata keçirilən dövlət proqramları muxtar respublikanın inkişafının daha sürətli mərhələyə qədəm qoymasına rəvac verib. Məhz bütün bunların nəticəsində, mövcud çətinliklər aradan qaldırılaraq, dünyada ikinci bir nümunəsi olmayan blokada vəziyyətində dayanıqlı və sabit iqtisadi sistem formalaşıb, iqtisadi potensialın daha da artmasına şərait yaradılıb. Təkcə onu qeyd etmək kifayətdir ki, vaxtilə Naxçıvan Muxtar Respublikasında 15 adda məhsul istehsal olunurdusa, artıq bu gün 372 növdə məhsul istehsal olunur. Əgər 1990-cı ildə muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, hazırda bu müəssisələrin sayı 7,9 dəfə artaraq 442-yə çatıb.

Bu gün muxtar respublikamız dünyaya daha bir nümunə göstərir. Bu, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ekoloji siyasətin uğurla davam etdirilərək ekoloji tarazlığın, ətraf mühitin qorunmasına daim diqqət göstərilməsi, iməciliklər yolu ilə yeni yaşıllıq zolaqlarının salınmasıdır. Kəskin kontinental iqlimə malik muxtar respublikada insandan böyük zəhmət və səbir tələb edən bu iş mütəşəkkilliklə həyata keçirilir. Nəticə etibarilə, Naxçıvan özünün yaşıl örtüyü, ətraf mühitinin təmizliyi ilə bura yolu düşənlərin diqqətini bu gün də cəlb edir. Qədim diyar indi zəngin tarixi keçmişi və mədəniyyəti ilə yanaşı, həm də ekoloji təhlükəsizliyin ciddi qorunduğu region kimi tanınır. Digər tərəfdən, bu tədbirlərin həyata keçirilməsində inzibati metodlardan istifadəyə yer verilmir. Muxtar respublika rəhbərinin ağac əkini kampaniyalarında şəxsi nümunə göstərməsi, ekoloji tədbirlərdə yaxından iştirak etməsi bu tədbiri ümumxalq işinə çevirməklə yanaşı, regionda ekoloji mədəniyyətin formalaşmasına da mühüm təsir göstərib. Həmin tədbirlərin davamı olaraq martın 3-də Uzunoba Su Anbarının kənarında iməcilik keçirilib, 2 hektar ərazidə 1500 meyvə tingi əkilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov iməcilikdə iştirak edib, meyvə tingləri əkib. Ali Məclisin Sədri yaz aylarında əkin işlərinin davam etdirilməsi barədə tapşırıqlar verib.

Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikasının iqtisadi-ticarət və humanitar sahələrdə xarici əlaqələri genişlənir. Hazırda muxtar respublikanın dünyanın 50-dən çox ölkəsi ilə ticarət əlaqələri mövcuddur. Elm və təhsil sahəsində də qarşılıqlı təcrübə mübadiləsinə əsaslanan münasibətlər hər il daha da inkişaf edir. Bu çərçivədə Koreya Respublikasının müxtəlif təhsil qurumları ilə Naxçıvan Dövlət Universitetinin qarşılıqlı əməkdaşlığı daha çox diqqəti cəlb edir.

Martın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-gyu ilə görüşüb. Ali Məclisin Sədri Azərbaycan ilə Koreya Respublikası arasındakı əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının rolundan danışıb, xüsusilə təhsil sahəsində səmərəli əməkdaşlığın qurulduğunu diqqətə çatdırıb. Naxçıvan Dövlət Universitetində Koreya dilinin tədris olunduğunu və koreyalı tələbələrin təhsil aldığını qeyd edən Ali Məclisin Sədri bütün bunların mədəni əlaqələrin inkişafına töhfə verdiyini bildirib. Koreyanın "KOİCA" şirkəti tərəfindən quraşdırılan yeni texnologiyalar hesabına bu il Naxçıvan Dövlət Universitetində distant təhsil mərkəzinin yaradıldığını diqqətə çatdıran Ali Məclisin Sədri əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Ölkəmizdə, o cümlədən muxtar respublikamızda qadınlar tarixin bütün dövrlərində öz fədakarlıqları və vətənpərvərlikləri ilə seçiliblər. Bu gün muxtar respublikada dövlət qulluğunda işləyənlərin 513 nəfəri, yaxud 20 faizi, təhsil sahəsində işləyənlərin 10 min nəfəri, yaxud 66 faizi, səhiyyə və sosial təminat sahəsində işləyənlərin 4 min 491 nəfəri, yaxud 76 faizi, mədəniyyət sahəsində işləyənlərin 2 min 692 nəfəri, yaxud 68 faizi, özəl sektorda işləyənlərin 11 min 323 nəfəri, yaxud 20 faizi qadınlardır. Ümumiyyətlə, muxtar respublikada qadınların 32 min 543 nəfəri işləyir ki, bu da işləyən əhalinin 33 faizini təşkil edir. Muxtar respublika qadınlarından 23 min 175-i Yeni Azərbaycan Partiyasının üzvüdür ki, onların da 111-i ərazi ilk partiya təşkilatının sədridir. Bütün bunlar onu deməyə əsas verir ki, artıq muxtar respublika qadınları cəmiyyət həyatının bütün sahələrində uğurla təmsil olunurlar.

Bu faktlar martın 7-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə keçirilən tədbirdə səsləndirilib. Tədbirdə çıxış edən Ali Məclisin Sədri bu gün muxtar respublikamızın inkişafında əməyi olan bütün qadınlara muxtar respublikanın Ali Məclisi və hökuməti adından təşəkkürünü bildirib, qadınları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib, çıxışını ölkə Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlayıb: ***"1918-ci ildə seçib-seçilmək hüququ qazanan Azərbaycan qadını qısa müddət ərzində bir neçə əsrə bərabər inkişaf yolu keçmişdir. Ümidvaram ki, qadınlarımız gələcək nəsillərin milli-mənəvi irsə, adət-ənənələrimizə hörmət ruhunda tərbiyəsində var qüvvələrini sərf edəcək, daim yeniləşən ölkəmizin daha da çiçəklənməsinə layiqincə xidmət göstərəcəklər".***

Sonra Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının təltiflərinin təqdimatı olub. Ali Məclisin Sədri təltiflərin vəsiqə və döş nişanlarını təqdim edib.

Bu gün muxtar respublikamızda kənd təsərrüfatı sahəsində transformasiya yönümlü dəyişikliklər başa çatıb, əsas növ ərzaq məhsulları üzrə özünütəminat səviyyəsi yüksəldilib, məhsul istehsalının artımı təmin edilib, kənd təsərrüfatı istehsalının strukturunda köklü dəyişikliklər baş verib. İnkişaf proseslərində davamlılığın təmin edilməsi üçün maddi-texniki resursların həcminin artırılması və bu sahəyə əlavə kapital qoyuluşunun həyata keçirilməsi, elm və texnologiyanın son nailiyyətlərindən istifadə olunması, torpaqların münbitliyinin yüksəldilməsi hesabına məhsul istehsalının artırılması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi prioritet istiqamətlər kimi müəyyənləşdirilib. Hər il muxtar respublikada bu istiqamətdə silsilə tədbirlər həyata keçirilir, mütərəqqi suvarma şəbəkələri qurulur, yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır.

Görülən kompleks işlərin davamı olaraq bu il Kəngərli rayonu ərazisində, "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin 410 hektar əkin sahəsində yeni qapalı suvarma şəbəkəsi qurulacaqdır. Həmçinin Kəngərli rayonunun Kərki və Xok kəndlərinin torpaq sahələrini əhatə edən qapalı suvarma şəbəkəsindəki hidrantlarda supaylayıcı hovuzlar qoyulacaq, ərazidə boru xətti çəkiləcək və yeni hidrantlar quraşdırılacaqdır. Ümumilikdə, tikinti işləri zamanı 100 nəfər işlə təmin olunacaqdır.

Martın 13-də Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin layihəsinə və tikinti aparılacaq əraziyə baxıb.

Ali Məclisin Sədri ərazidə qapalı suvarma şəbəkəsinin qurulmasının payız əkin dövrünə qədər başa çatdırılması, toxumçuluq təsərrüfatında taxılla yanaşı, digər kənd təsərrüfatı bitkilərinin əkilməsi və toxuma olan tələbatın ödənilməsi barədə tapşırıqlar verib.

Kənd təsərrüfatının inkişafında mütərəqqi metodların tətbiqi, müasir texnika və texnoloji avadanlıqlardan istifadə mühüm əhəmiyyətə malikdir. Muxtar respublikamızda bu istiqamətdə də ardıcıl tədbirlər görülür, torpaq mülkiyyətçilərinin texnika ilə təminatı diqqətdə saxlanılır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyəti dövründə muxtar respublikaya 2213 texnika və texnoloji avadanlıq alınıb gətirilib, onlardan 1808-i sahibkarlara satılıb. Bu il 6 taxılsəpən, 15 kotan, 8 otbiçən, 4 çizel, 8 gübrəsəpən, 10 otdoğrayan maşın, 6 suvarma sistemi və digər texnoloji avadanlıqlar olmaqla, 59 texnika alınıb. Yeni texnika və avadanlıqlar əkin sahələrində, eləcə də təsərrüfat işlərində mütərəqqi aqrotexniki qaydaların tətbiqinə imkan verəcəkdir. Lizinqə götürüləcək kənd təsərrüfatı texnikalarının ilkin dəyərinin 20 faizi ödənildikdən sonra dövlət büdcəsi hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilir ki, bu da kənd təsərrüfatının inkişafına öz töhfəsini verməkdədir. Sərfəli şərtlərlə uzun müddətə lizinqə verilən kənd təsərrüfatı texnikaları yüksək keyfiyyət göstəricilərinə malikdir.

Martın 17-də Ali Məclisin Sədri "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınmış yeni kənd təsərrüfatı texnikalarına, daha sonra isə cəmiyyətin bitkiçilik və heyvandarlıq aptekinə, eləcə də ehtiyat hissələri və gübrə anbarlarına baxıb.

Ali Məclisin Sədri sahibkarların tələbatına və sifarişinə uyğun texnika və gübrələrin alınıb gətirilməsi, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində və rayon bazalarında texnikaların ehtiyat hissələrinin, arıçılıq ləvazimatlarının və dərmanların satışının həyata keçirilməsi, kənd təsərrüfatında mütərəqqi metodlardan və texnikalardan istifadə ilə bağlı maarifləndirmə işlərinin aparılması barədə tapşırıqlar verib.

Aprelin 11-də ölkəmizin ictimai-siyasi həyatında növbəti mühüm hadisə olacaq, Azərbaycan Respublikası Prezidenti seçkiləri keçiriləcəkdir. Seçkilərin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasında, o cümlədən Naxçıvan Muxtar Respublikasında hazırlıq işləri yüksək səviyyədə həyata keçirilib. Muxtar respublikanın Mərkəzi Seçki Komissiyasının, dairə seçki komissiyalarının müasir inzibati binalarla təmin edilməsi, seçki məntəqələrinin fəaliyyəti üçün zəruri şəraitin mövcudluğu muxtar respublikada seçkilərin qanunvericiliyə uyğun olaraq yüksək səviyyədə keçirilməsinə geniş imkanlar açır. Seçkilər zamanı müşahidəçilərin müşahidə aparmaları üçün hər cür şərait yaradılıb.

Martın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Azərbaycanda keçiriləcək prezident seçkilərini müşahidə etməyə gəlmiş missiyasının muxtar respublikada fəaliyyət göstərəcək müşahidəçiləri Filipo Ristoldo və Risto Hurme ilə görüşüb.

Ali Məclisin Sədri muxtar respublikada seçki prosesinə hazırlıq işlərini diqqətə çatdırıb, beynəlxalq müşahidəçilərin fəaliyyəti üçün hərtərəfli şəraitin yaradıldığını qeyd edib. Seçki müşahidələrinin qanunvericiliyin tələblərinə uyğun aparılacağına əminliyini bildirən Ali Məclisin Sədri qonaqlara fəaliyyətlərində uğurlar arzulayıb.

Muxtar respublikamızda Novruz bayramı hər il yüksək nailiyyətlərlə qarşılanır, baharın gəlişi quruculuq, əmin-amanlıq və sabitlik şəraitində qeyd olunur. Martın 19-da Naxçıvan şəhərindəki "Əcəmi Seyrangahı" Mədəniyyət və İstirahət Kompleksində Novruz bayramı münasibətilə bayram şənliyi keçirilib.

Ali Məclisin Sədri ailə üzvləri ilə birlikdə bayram şənliyində iştirak edib.

Ali Məclisin Sədri Novruz bayramı və Od çərşənbəsi münasibətilə muxtar respublikanın əhalisini, hərbi hissələrin şəxsi heyətlərini və tədbir iştirakçılarını təbrik edib. Muxtar respublikanın 2017-ci ildə əldə etdiyi mühüm nailiyyətləri diqqətə çatdıran Ali Məclisin Sədri deyib: ***"Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı seçilmişdir. Bu da qarşıya mühüm vəzifələr qoyur. Bu il muxtar respublikada mədəni-kütləvi tədbirlərin əhatə dairəsi genişlənəcək, gənclər siyasəti ilə bağlı ardıcıl tədbirlər həyata keçiriləcəkdir. Eyni zamanda quruculuq işləri də davam etdiriləcək, sosial-iqtisadi islahatlar diqqətdə saxlanacaqdır. Əminik ki, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət və bu yolun ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsi hər il olduğu kimi, bu il də ölkəmizi inkişafa qovuşduracaq, dövlət müstəqilliyimiz və sabitlik daha da möhkəmlənəcəkdir".***

Ali Məclisin Sədri bir daha tədbir iştirakçılarının Novruz bayramını təbrik edib, bayram tonqalını yandırıb.

Ali Məclisin Sədri ictimai iaşə xidmətinin təşkili ilə maraqlanıb.

Yeni günün, yeni nizamın başlanğıcı olan Novruzun min illərdir, qorunub-yaşadılan ənənələrindən biri də bayram günlərində yaz-tarla işlərinin görülməsi, təsərrüfatlarda səliqə-sahman yaradılmasıdır. Təbiətə qayğı və torpağa bağlılıqdan qaynaqlanan bu adətlər muxtar respublikada bu gün də yaşadılır. Novruz bayramı münasibətilə iməciliklər keçirilir, meyvə bağları və yaşıllıqlar salınır.

Martın 24-də Naxçıvan Muxtar Respublikasında Novruz iməciliyi keçirilib, Naxçıvan şəhərində və rayon mərkəzlərində "Gənclər bağı" salınıb.

Ali Məclisin Sədri Naxçıvan-Şərur-Sədərək magistral avtomobil yolunun kənarında keçirilən iməcilikdə iştirak edib, meyvə tingləri əkib. Ali Məclisin Sədri meyvə bağlarına və yaşıllıq zolaqlarına düzgün aqrotexniki qulluq göstərilməsi barədə tapşırıqlar verib.

Martın 30-da Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə kompleksində 1918-ci il azərbaycanlıların soyqırımının yüzüncü ildönümü ilə əlaqədar tədbir keçirilib.

Ali Məclisin Sədri abidə önünə gül qoyub, soyqırımı qurbanlarının xatirəsini dərin ehtiramla yad edib.

Ali Məclisin Sədri cənab Vasif Talıbov tədbirdəki çıxışında deyib: ***"Tarix ona görə yad olunur ki, ondan nəticə çıxarılsın. Ötən iki əsr ərzində xalqımızın məruz qaldığı qanlı faciələrin və soyqırımların təkrar olunmaması, itirilmiş və işğal olunmuş torpaqlarımızın geri qaytarılması naminə hər gün səylə çalışmalıyıq. Güclü xalq – güclü dövlət prinsipini əldə rəhbər tutaraq, gənclərimizi vətənpərvərlik, qəhrəmanlıq ruhunda tərbiyə edərək müstəqil Azərbaycanımızı daha da möhkəmləndirməliyik".***

Bu gün muxtar respublikamız məhz bu prinsiplərlə yaşayır, görülən bütün işlər bu müqəddəs amallara xidmət edir. Naxçıvanda Azərbaycançılıq məfkurəsi, dövlətçilik, milli dəyərlər, tarixi köklərimizə bağlılıq hər şeydən üstün tutulur. İctimai həyatın bütün sahələrində yüksək tərəqqiyə nail olan, sürətlə müasirləşərək qarşıya qoyulan strateji hədəfləri reallaşdıran Naxçıvanda ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf xətti uğurla davam etdirilir. Bütün bunların mərkəzində isə insan amili dayanır. Görülən işlər muxtar respublika sakinlərinin rifahının yaxşılaşdırılmasına, gələcəyimizin etibarlı şəkildə qurulmasına, enerji və ərzaq təhlükəsizliyimizin təmin edilməsinə, intellektual potensialın güclənməsinə, innovasiyayönümlü inkişafın davamlı xarakter almasına xidmət edir.

**Rauf KƏNGƏRLİ**

*Tarixi abidələrimiz milli sərvətimizdir*

# Türk-islam mədəniyyətinin nadir nümunəsi – Ordubad Qeysəriyyəsi

***Orta əsrlər zamanı Naxçıvan ərazisində türk-islam mədəniyyətinə aid çox sayda müxtəlif təyinatlı memarlıq abidələri inşa edilmişdir. Azərbaycan memarlığının inkişaf etmiş qollarından biri olan Naxçıvan məktəbinin yarandığı və formalaşdığı bu ərazidə həmin vaxt türk-islam mədəniyyətinin möhtəşəm nümunələrindən hesab edilən xeyli sayda türbələr, məscidlər, xanəgahlar, buzxanalar, karvansaralar, körpülər, hamamlar, mülki tikintilər və digər abidələr ucaldılmışdır. Belə abidələrdən biri də Səfəvi hökmdarı I Şah Abbasın hakimiyyəti illərində Ordubad şəhərində inşa edilən və Azərbaycan memarlığının nadir nümunələrindən sayılan Qeysəriyyə abidəsidir. Ordubad şəhərinin mərkəzində, bazar meydanında yerləşən bu abidə orta əsrlər zamanı əhalinin və şəhərin ticarət-iqtisadi həyatında mühüm rol oynamışdır.***



Qeysəriyyələr orta əsrlər zamanı şəhər ticarətində mühüm əhəmiyyət kəsb edən bazarlar qrupuna daxil idi. Bəzən “Bədistan” da adlanan bu bazarlar üstüörtülü bazarlar tipinə aiddir. Bu bazarlarda, əsasən, xarici ölkələrdən gətirilmiş və ölkə sənətkarları tərəfindən hazırlanmış bahalı mallar, xüsusilə daş-qaş, cavahirat satıldığından onlara əhali arasında “Şah bazarı” da deyilirdi. Qaynaqlardan məlum olur ki, orta əsrlər zamanı hər şəhərdə Qeysəriyyə olmamışdır. Məsələn, XVII əsrdə Mərənd şəhərində 3000 ev, 7 məscid, 3 karvansara, 5 hamam, 600 dükan, 70-ə qədər gəzməli xiyaban olsa da, orada Qeysəriyyə yox idi.





Zəmanəmizədək gəlib çatan mənbələrin məlumatlarından aydın olur ki, orta əsrlər zamanı Qeysəriyyənin olması üçün şəhərin böyüklüyü və ya kiçikliyi əsas səbəb deyildir. Çünki Mərəndlə müqayisədə Ordubad kiçik şəhər olsa da, burada Qeysəriyyə var idi. Orta əsrlər zamanı Ərdəbil Azərbaycanın böyük şəhərləri sırasına daxil olmasa da, orada Qeysəriyyə fəaliyyət göstərmişdir. Məlumdur ki, Ərdəbil şəhəri Səfəvi şahlarının vətəni olduğu üçün xüsusi statusa malik idi. Səfəvilərin əcdadlarının yaşadığı və dəfn olunduğu bu şəhər dövlətin şimal və cənub bölgələrini birləşdirən ticarət-karvan yollarının üstündə yerləşirdi və özü də mühüm ticarət mərkəzi idi. Şəhərin mərkəzində uzunluğu 300, eni 150 addım olan, hər iki tərəfdə dükanların sıralandığı bazar meydanı var idi. Meydanın arxa tərəfində dördkünc formada, üstüörtülü Qeysəriyyə yerləşirdi. Bu bazar şəhərin ticarət həyatında, daxili və xarici ticarətdə mühüm rol oynayırdı. Burada qızıl, gümüş məmulatlar, əla keyfiyyətli ipək, bahalı və qiymətli mallar satılırdı. Orta əsr mənbələrində bu bazar “ticarət birjası” adlandırılmışdır.

Yarım əsrdən artıq Səfəvilər dövlətinin paytaxtı olmuş, Azərbaycanın mühüm ticarət və sənətkarlıq mərkəzi Təbriz şəhərində, 1598-ci ildən etibarən Səfəvilər dövlətinin paytaxtına çevrilən İsfahan şəhərində, orta əsrlər zamanı Azərbaycanın mühüm elm, təhsil, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən sayılan Naxçıvan şəhərində də qeysəriyyələr fəaliyyət göstərmişdir. Naxçıvan şəhərindəki Qeysəriyyə haqqında qaynaqlarda geniş məlumat yoxdur. Ancaq XVII əsrin ortalarında şəhərdə olmuş Övliya Çələbi yazır ki, Naxçıvanın “Şah bazarı”nda varlı tacirlər və alverçilər vardır. Onlardan hər biri Qarun var-dövlətinə bərabər varı olan yüksək etibara malik tacirlərdir.

Orta əsr şəhərlərinin ticarət-iqtisadi həyatında mühüm rol oynayan qeysəriyyələrdən biri də Ordubad şəhərində fəaliyyət göstərmişdir. Müəyyən aşınmalara məruz qalsa da, zəmanəmizədək, əsasən, salamat vəziyyətdə gəlib çatan Qeysəriyyə şəhərin mərkəzində, Dübəndi çayının sol sahilində, Came məscidinin lap yaxınlığında yerləşir. Bişmiş kərpicdən tikilmiş abidənin ümumi sahəsi 540 kvadratmetrdir. Memarlıq quruluşuna görə Qeysəriyyə binası ölçüsü 10x10 metr olan mərkəzi səkkizbucaqlı zaldan və onun üstünü – tavanını qapayan dairəvi günbəzdən, günbəzi künclərdə saxlayan mürəkkəb quruluşlu dörd ədəd dayaqdan, dayaqlarla kənar divar taxçaları arasında yerləşən keçidlərdən (eni 3,4 metr) ibarətdir. Keçidlərin tavanı 16 ədəd kiçik günbəzlərlə qapanmışdır. Bişmiş kərpicdən hörülən divarların qalınlığı 80 santimetrdir. Mərkəzi günbəz də daxil olmaqla abidənin hündürlüyü 8,5 metrdir.

Orta əsrlərdə qeysəriyyələr, əsasən, ticarət-iqtisadi cəhətdən əhəmiyyətli şəhərlərdə fəaliyyət göstərdiyi üçün çox da böyük olmayan Ordubad şəhərində Qeysəriyyənin inşa edilməsi diqqəti cəlb edir. Fikrimizcə, bu, Ordubad şəhərinin Səfəvilər dövründə siyasi və ticarət-iqtisadi nüfuzunun artması ilə izah olunmalıdır. Çünki Ordubad şəhəri Səfəvilərin hakimiyyəti dövründə xüsusi statusla daim Səfəvi şahlarının diqqət və qayğısı ilə əhatə olunmuşdur. Hətta Səfəvi hökmdarı I Şah Abbas 1604-cü ildə fərman verərək Ordubad şəhər əhalisini xəzinəyə ödəniləcək bir sıra vergilərdən azad etmişdi. I Şah Abbas özü bir neçə dəfə Ordubadda olmuş, gözəl havası, dadlı meyvələri, təmiz suyu ilə seçilən bu şəhərdə və bəzi şəhərətrafı kəndlərdə gəzib istirahət etmişdi. Məhz buna görə də göstərilən qayğının nəticəsi olaraq XVII əsrdə, I Şah Abbasın zamanında burada Qeysəriyyə binası inşa olunmuşdur. Bu məsələdə şəhərdə və ətraf kəndlərdə yaşayan Nəsirəddin Tusi nəsli amilini də unutmaq olmaz. Qədim zamanlardan şəhərdə yaşayan bu nəslin nümayəndələri nəinki bölgənin, hətta bütün dövlətin ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Onlar Səfəvilər dövründən başlayaraq Ordubad şəhərinin rəisləri – kələntərləri vəzifəsində çalışmışlar. Hətta nəslin nümayəndəsi Hatəm bəy Ordubadi I Şah Abbasın baş vəziri vəzifəsinədək yüksəlmiş, “etimad əd-dövlə” tituluna layiq görülmüşdür. Şəhərdə Qeysəriyyə binasının inşa edilməsi və fəaliyyət göstərməsində bütün bu amillərin həlledici rol oynamasına şübhə yoxdur.

Şərq memarlığında nadir abidələrdən olan Ordubad Qeysəriyyəsi uzun müddət tarixi və memarlıq ədəbiyyatında Zorxana binası kimi qələmə verilmiş, hətta Sovet hakimiyyəti illərində cənubdan giriş qapısının yanında onun Zorxana binası olduğunu və tarix-mədəniyyət abidəsi kimi qorunduğunu bildirən lövhə vurulmuşdu. Akademik Ə.Salamzadə yazır ki, xalq arasında “Qeysəriyyə” adı ilə tanınması belə bir mülahizəni irəli sürməyə imkan verir ki, ola bilsin, bu binadan yalnız sonralar zorxana kimi istifadə olunmuşdur.

Yerli əhalinin söylədiyinə görə, zorxana kimi fəaliyyət göstərdiyi zaman binanın döşəməsinə səliqə ilə gəvən kolları düzərək üstünə narın torpaq tökərmişlər. Bundan sonra İrandan, Osmanlı dövlətindən və başqa yerlərdən gələn pəhləvanlar burada güləşərmişlər. Qalib gələn pəhləvan hücrədə əyləşən xandan mükafat olaraq bir kisə qızıl alarmış. XIX yüzillikdə Qeysəriyyə binasından müxtəlif məqsədlərlə istifadə olunmuş, orada ipəksarıyan sex fəaliyyət göstərmişdir. Bu vəziyyət Sovet hakimiyyəti illərində davam etdirilmişdir. Həmin vaxt bina daxildən hissələrə bölünərək anbar, aşxana, mağaza kimi istifadə olunmuşdur. Bir müddət Came məscidində yerləşən Tarix-Diyarşünaslıq Muzeyi 1981-ci ildə Qeysəriyyə binasına köçürülmüşdür.

Zaman keçdikcə müəyyən aşınmalara məruz qaldığından Qeysəriyyə binasının bərpasına ehtiyac yaranmışdı. Ona görə də 2010-cu ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tapşırığı ilə Qeysəriyyə binasında əsaslı bərpa və təmir işləri aparılmışdır. Binanın dam örtüyü təmir olunmuş, köhnə şəbəkələr yeniləri ilə əvəz edilmiş, 200 kvadratmetr şəbəkə sistemi işlənmişdir. Həmçinin binanın daxili divarları bərpa olunaraq naxışlı kərpiclərlə bəzədilmişdir. Binada fəaliyyət göstərəcək Tarix-Diyarşünaslıq Muzeyi üçün fond otağı, əməkdaşlar üçün iş otaqları yaradılmış, ekspozisiya zalına uyğun işıqlandırma sistemi quraşdırılmış, fərdi qazanxana yaradılmış, abidənin ətrafı abadlaşdırılmışdır.

Bərpa işləri başa çatdırıldıqdan sonra abidənin dövlət səviyyəsində açılışı olmuşdur. Açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Azərbaycanın incisi olan Ordubadda tarixi abidələr bərpa olunur, onların gələcək nəsillərə çatdırılması təmin edilir. Hər bir yerin tarixi yalnız kitablarda deyil, onun torpağında, tikililərində, abidələrində yaşayır. Tarixini, vətənini sevən insanlar abidələri qoruyub gələcək nəsillərə ötürməlidir. Hər birimiz tariximizlə qürur hissi keçirməli, bütün dünyaya göstərməliyik ki, ulu babalarımız, əcdadlarımız belə zəngin tarixə malik olublar”.***

*Yüksək səviyyəli bərpa işləri və açılış mərasimindən sonra Ordubad rayon Tarix-Diyarşünaslıq Muzeyi yenidən Qeysəriyyə binasında öz fəaliyyətini davam etdirməyə başlamışdır.*

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

# Xarici medianın Naxçıvana marağı artmaqdadır






Müstəqil Azərbaycanın iqtisadi və mədəni inkişaf sahəsində uğurları artdıqca dünyanın müxtəlif rəsmi media kanallarının, aparıcı informasiya qurumlarının da bununla bağlı müsbət reaksiyasını görməkdəyik. Məsafəcə Azərbaycandan çox uzaqlarda yerləşsə də, bir çox ölkəyə məxsus internet səhifələrində respublikamız, xüsusən də İslam Mədəniyyəti Paytaxtı kimi Naxçıvanın tarixi, mədəniyyəti, görməli yerləri haqqında informasiyaların verilməsi fərəh doğurur.

Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasındakı səfirliyinin və Azərbaycan Respublikasının Cenevrədəki Birləşmiş Millətlər Təşkilatı Ofisində və digər beynəlxalq təşkilatlardakı Daimi Təmsilçiliyinin saytlarında Azərbaycan Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərinin Asiya regionu üzrə 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması haqqında yazılar, Naxçıvanın tarixi, mədəniyyəti və müasir inkişafını əks etdirən fotoşəkillər dərc olunub. Bu internet resurslarında beşminillik şəhər mədəniyyətinə malik Naxçıvan şəhərinin 5,5 min kvadratkilometr əraziyə və 452 mindən artıq əhalisi olan Naxçıvan Muxtar Respublikasının paytaxtı olması, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Naxçıvan muxtariyyətinin 1921-ci ildə imzalanmış beynəlxalq Moskva və Qars müqavilələrində əks olunmaqla 1924-cü ildən başladığı göstərilib.

Naxçıvan Muxtar Respublikasının dövlət quruluşu, inzibati ərazi vahidləri, ali qanunverici və icraedici qurumları haqqında məlumatların yer aldığı məqalələrdə Naxçıvanın Qafqaz regionunda qədim tarixə malik olması, eyni zamanda Azərbaycan dövlətçiliyinin formalaşmasına verdiyi töhfələrdən bəhs olunur. Naxçıvanın XII əsrdə Atabəylər, XVIII-XIX əsrlərdə Naxçıvan xanlığı, XX əsrin əvvəlində Araz-Türk Respublikası kimi Azərbaycan ərazisində mövcud olmuş müxtəlif dövlətlərin paytaxtı olması, onun qədim və orta əsr türk-islam mədəniyyətinə məxsus abidələrlə zənginliyi qeyd edilib. Həmçinin böyük tarixi arxitektura nümunələri hesab olunan qədim yurd yerləri, şəhərlər, möhtəşəm qalalar, təbiət abidələri və məqbərələrin mövcudluğu vurğulanıb, ümumilikdə, 57-si dünya, 496-sı yerli əhəmiyyətli olmaqla, 1200-dən artıq tarixi abidənin qeydə alındığı bu yazılarda öz əksini tapıb.

Eyni zamanda Naxçıvanda bəşəri, dini, milli dəyərlərə və adət-ənənələrə hörmət göstərilməsi, onların qorunub saxlanılması, tarixi abidələrin, qeyri-maddi mirasın və mədəniyyətin mühafizə edilməsi, bərpa olunub dünyaya tanıdılması diqqətə çatdırılıb, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmasının əhəmiyyəti vurğulanıb.

***Hazırladı:*** **Əli CABBAROV**

# *“Qılınc və qələm”* romanına həsr olunmuş elmi konfrans

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Oxunması zəruri olan kitablar haqqında” 2017-ci il 28 avqust tarixli Sərəncamının icrası istiqamətində AMEA Naxçıvan Bölməsində silsilə tədbirlər keçirilir. Bu məqsədlə bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu və Elektron kitabxana tarixi romanların banisi Məmməd Səid Ordubadinin “Qılınc və qələm” romanına həsr olunan elmi konfrans təşkil edilib.

Tədbirdə bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev xalqımızın qədim mədəni irsinin qorunub yaşadılması, inkişafı istiqamətində görülən işlərdən danışıb.

İnstitutun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, dosent Ramiz Qasımov “Azərbaycan ədəbiyyatının istiqlal romanı: “Qılınc və qələm”” mövzusunda məruzə edib. Məruzədə Məmməd Səid Ordubadinin Azərbaycan xalqının və dövlətinin tarixi, mübarizə əzmi barəsində sanballı əsərlər yaratmasından və “Qılınc və qələm” əsərinin ideya-bədii xüsusiyyətlərindən bəhs olunub.

Konfransda həmin institutun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Əli Həşimov, Musiqi və teatr şöbəsinin böyük elmi işçisi, dosent Ələkbər Qasımov və Elektron kitabxananın direktoru Sahab Əliyeva çıxış edərək əsərin əhəmiyyətli məziyyətlərindən danışıblar.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Seçki marafonu

## 11 aprel – Azərbaycan Respublikası Prezidentinin seçkiləri günüdür

**Prezident seçkiləri - 2018**

**Seçkilər günü səsvermə saat 8-dən 19-a kimi keçirilir.**

**Hörmətli seçicilər!**

Azərbaycan Respublikası vətəndaşlarının seçkilərdə iştirakı azad və könüllüdür. Seçkilərdə iştirak edib-etməməyə məcbur etmək məqsədi ilə heç kəsin Azərbaycan Respublikası vətəndaşına təzyiq göstərmək hüququ yoxdur və heç kəs onun öz iradəsini azad ifadə etməsinə mane ola bilməz.

Seçkilər günü saat $7^{50}$-də məntəqə seçki komissiyasının sədri seçki məntəqəsini açıq elan edir, seçki komissiyasının üzvlərinə, orada olan seçicilərə, müşahidəçilərə boş seçki qutularını göstərib kilidləyir, saat $8^{00}$-da səsvermənin başlandığını elan edir.

Məntəqə seçki komissiyasının bir üzvü seçki məntəqəsinin girişində dayanaraq məntəqəyə daxil olan vətəndaşların şəxsiyyət vəsiqələrini və ya şəxsiyyəti təsdiq edən digər sənədləri, onun sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin gözə görünməyən maye ilə əvvəl işarələndiyini yoxlayır və içəri daxil olmağa icazə verir. Bu cür işarələnmə müəyyən edilərsə, seçiciyə seçki bülleteni verilmir. Məntəqə seçki komissiyasının digər üzvü seçicinin adının seçici siyahısında olduğunu yoxlayır və ona seçki bülleteni verir.

**Barmağının maye ilə işarələnməsindən imtina edən seçiciyə seçki bülleteni verilmir.**

Seçici razılaşmadıqda ondan seçki məntəqəsini tərk etmək tələb edilməlidir.

Bu barədə seçici siyahısında "işarələnmədən imtina etdi" qeydi aparılır. Seçici razılaşarsa, seçicinin sol əlinin baş barmağı işarələnir.

Seçiciyə seçki bülleteni şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd təqdim edildikdə verilir. Seçici seçki bülletenini aldıqdan sonra seçicilər siyahısına şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası və nömrəsi yazılır. Təqdim olunmuş şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası və nömrəsi seçicilər siyahısına məntəqə seçki komissiyasının üzvü tərəfindən qeyd edilir. Seçici yazıların düzgünlüyünü yoxlayır və bülleteni alarkən imza edir.

**Seçicinin seçki bülletenini sərbəst almaq imkanı olmadıqda o, məntəqə seçki komissiyasının üzvləri və müşahidəçilər istisna olmaqla, başqa şəxslərin köməyindən istifadə edə bilər.**

Seçiciyə kömək edən şəxs öz soyadını və inisialını göstərməklə seçici siyahısında "seçicinin seçki bülletenini alması haqqında imza" qrafasında imza etməlidir.

**Seçki bülleteni seçiciyə verilərkən onun nömrələnmiş sol küncü məntəqə seçki komissiyasının üzvü tərəfindən kəsilmə xətti boyunca kəsilir və özündə saxlanılır.**

Hər bir seçici şəxsən və təklikdə səs verir. Başqa şəxslərin əvəzinə səs verməyə icazə verilmir. Seçki bülleteni seçicidən başqa heç kəsin daxil olmasına icazə verilməyən, gizli səsvermə üçün xüsusi avadanlıqla təchiz edilmiş otaqda və ya kabinədə doldurulur. Seçki bülletenini müstəqil yazıb doldurmaq imkanı olmayan əlil seçici, məntəqə seçki komissiyasının üzvlərindən və müşahidəçilərdən başqa, istədiyi şəxsi kömək üçün otağa və ya kabinəyə çağıra bilər. Bu şəxsin soyadı və inisialı seçicilər siyahısında seçki bülleteni alınması barədə seçicinin imzası ilə birgə göstərilir.

Seçici doldurulmuş seçki bülletenini səsvermə üçün nəzərdə tutulmuş seçki qutusuna salır.

**Seçki qutuları məntəqə seçki komissiyası üzvlərinin və müşahidəçilərin maneəsiz müşahidə edə bildikləri yerdə qoyulmalıdır.**

Məntəqə seçki komissiyasının sədri səsvermə yerində qayda-qanuna nəzarət edir. Onun sərəncamları səsvermə otağında olan şəxslər üçün məcburidir. Məntəqə seçki komissiyasının sədri seçki məntəqəsində olmadıqda onu məntəqə seçki komissiyasının katibi və ya komissiyanın bu vəzifələr həvalə olunmuş üzvü əvəz edir.

Səsvermədə seçici kimi iştiraketmə halları istisna edilməklə, dövlət orqanlarının vəzifəli şəxslərinin olması qadağandır. Hüquq-mühafizə orqanlarının işçiləri məntəqədə asayişin bərpa edilməsi məqsədi ilə məntəqə seçki komissiyasının sədri tərəfindən seçki məntəqəsinə dəvət oluna bilərlər və öz vəzifələrini icra etdikdən sonra seçki məntəqəsini dərhal tərk etməlidirlər.

**Seçicinin öz iradəsini ifadə etməsinə təsir göstərməyə cəhd edən və ya gizli səsverməni pozan məntəqə seçki komissiyasının üzvü müvafiq akt tərtib edilməklə işindən kənarlaşdırılır.**

Hüquq-mühafizə orqanının işçisi səsvermə zamanı səsvermə otağında olduqda səsvermə dayandırılır. Səsvermə zamanı asayişi bərpa etmək 6 saatdan artıq mümkün olmazsa, dairə seçki komissiyasının qərarı ilə seçki məntəqəsi bağlanır. Belə seçki məntəqələrində səsvermə etibarsız sayılır.

**Seçici seçki bülletenini doldurarkən səhv etdiyini bildirərsə, ona seçki bülleteni vermiş məntəqə seçki komissiyası üzvündən korlanmış seçki bülleteninin əvəzinə yeni seçki bülleteni verməsini xahiş edə bilər.**

Bu halda seçki komissiyasının üzvü korlanmış bülleteni ortadan kəsməklə ləğv edir, ayrıca zərfə qoyur, seçiciyə yeni bülleten verir və seçicilər siyahısında seçicinin soyadından sağda müvafiq qeyd edir. Bu barədə dərhal ayrıca akt tərtib olunur.

Məntəqə seçki komissiyası bütün seçicilərə, o cümlədən səhhətinə görə səsvermə otağına gələ bilməyən seçicilərə səsvermədə iştirak etmək imkanı yaratmalıdır. Bu məqsədlə seçki məntəqəsində bir daşınan seçki qutusu olur. Seçici səsvermə otağından kənarda səs vermək istəyini əvvəlcədən yazılı surətdə və ya məntəqə seçki komissiyası üzvlərinin yanında ərizə yazaraq bildirə bilər. Seçici seçki bülleteni aldığını ərizəsində qeyd edir və imzası ilə təsdiqləyir. Bu zaman ərizədə şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi qeyd olunur.

Səsvermə otağından kənarda səsvermə elə təşkil edilməlidir ki, vətəndaşın seçki hüquqları, gizli səsvermə və ya seçicinin öz iradəsini ifadə etməsi qaydaları pozulmasın.

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası**

---

*Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının Gənclər və İdman, Təhsil nazirlikləri ilə razılaşdırılmış təqvim planına uyğun olaraq futbol üzrə XVI muxtar respublika çempionatında növbəti iki turun oyunları keçirilib.*

## Futbol üzrə muxtar respublika çempionatının turları davam edir

Son çempion – "Araz-Naxçıvan" iddialı çıxışını davam etdirib. Belə ki, "qırmızı-ağlar" ilk olaraq 12-ci turda "Babək" komandasının qonağı olub. Rəqibi 4:1 hesabı ilə məğlub edən Naxçıvan təmsilçisi 13-cü turda da uğura imza atıb. Bu dəfə onlar doğma arenada turnir cədvəlində ən yaxın izləyiciləri Naxçıvan Dövlət Universitetinin (NDU) komandasını məğlubiyyətə uğradıblar – 5:0. Bununla mövsüm ərzində 13-cü ardıcıl qələbəsini qazanan "Araz-Naxçıvan" çempionluğa bir addım da yaxınlaşıb.

Hazırda turnir cədvəlinin ikinci pilləsi uğrunda kəskin mübarizə gedir. NDU-nun komandası "Araz-Naxçıvan"la görüşdə məğlub olaraq bir qədər işini çətinə salıb. Lakin Şahbuzun "Batabat" komandası üzərində qələbə tələbələri ruhlandırıb. "Əlincə" komandası isə bundan maksimum istifadə edib. Belə ki, Culfa təmsilçiləri əvvəlcə doğma arenada Sədərək futbolçularını büdrədiblər – 4:0. Növbəti turda isə onlar üç xalı "Batabat" komandasını məğlub etməklə əldə ediblər – 1:3.

"Dübəndi" komandası isə mövsüm ərzində 5-ci qələbəsini qazanıb. Onlar Kəngərlinin eyniadlı komandası üzərində minimal hesablı qələbəyə sevinibləр – 1:0. Şərurun "Arpaçay" komandası isə uzun fasilədən sonra meydanı üç xalla tərk edib. Şərurlular "Babək" komandasını məğlub etməklə rəqibi ilə xalları bərabərləşdiriblər – 6:3.

Bombardirlər cədvəlinə NDU-nun forvardı Samir Kərimov başçılıq edir. Onun aktivində 20 qol var. "Araz-Naxçıvan"ın futbolçusu Turqay İbrahimov isə 15 qolla ikincidir.

*12-ci tur*

*"Babək"-"Araz-Naxçıvan" – 1:4*
*NDU-"Batabat" – 5:0*
*"Kəngərli"-"Arpaçay" – 3:0*
*"Əlincə"-"Sədərək" – 4:0*

*13-cü tur*

*"Arpaçay"-"Babək" – 6:3*
*"Batabat"-"Əlincə" – 1:3*
*"Dübəndi"-"Kəngərli" – 1:0*
*"Araz-Naxçıvan"-NDU – 5:0*

| S/№ | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | Araz-Naxçıvan | 13 | 13 | 0 | 0 | 60-5 | 39 |
| 2. | NDU | 12 | 8 | 1 | 3 | 39-25 | 25 |
| 3. | Əlincə | 12 | 7 | 3 | 2 | 29-19 | 24 |
| 4. | Dübəndi | 12 | 5 | 2 | 5 | 21-25 | 17 |
| 5. | Sədərək | 12 | 4 | 1 | 7 | 28-36 | 13 |
| 6. | Kəngərli | 13 | 4 | 1 | 8 | 27-40 | 13 |
| 7. | Babək | 13 | 3 | 2 | 8 | 19-31 | 11 |
| 8. | Arpaçay | 12 | 3 | 2 | 7 | 23-33 | 11 |
| 9. | Batabat | 13 | 3 | 0 | 10 | 23-50 | 9 |

**Ceyhun MƏMMƏDOV**

---

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2018-ci ilin mart ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3109 | 230,0 | 230,0 | 100,0 |
| 2. | Şərur rayonu | 2318 | 164,6 | 164,6 | 100,0 |
| 3. | Babək rayonu | 1967 | 139,6 | 139,6 | 100,0 |
| 4. | Ordubad rayonu | 1079 | 76,5 | 76,5 | 100,0 |
| 5. | Culfa rayonu | 1063 | 75,5 | 75,5 | 100,0 |
| 6. | Kəngərli rayonu | 739 | 52,5 | 52,5 | 100,0 |
| 7. | Şahbuz rayonu | 459 | 32,6 | 32,6 | 100,0 |
| 8. | Sədərək rayonu | 248 | 17,6 | 17,6 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 14242 | 1281,8 | 1388,6 | 108,3 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **25224** | **2070,7** | **2177,5** | **105,2** |

**Qeyd:** Mart ayında texniki itki nəzərə alınmaqla daxil olan 25 milyon 224 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 70 min 700 manat olmuş, cəmi 2 milyon 177 min 500 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 105,2 faizini təşkil edir.

---

## Elan

Naxçıvan Qızlar Liseyi 2018-2019-cu tədris ili üçün V siniflərə və VI, VII, VIII siniflərin vakant yerlərinə şagird qəbulu elan edir.

Liseyə qəbul üçün aşağıdakı sənədlər tələb olunur:

Şəffaf fayl və göy rəngli qovluğa salınmış;

*1) Şəxsiyyət vəsiqəsinin surəti*
*2) 3x4 santimetr ölçüdə 2 ədəd fotoşəkil*
*3) Valideynin ərizəsi*
*4) Təhsil aldığı məktəbdən arayış.*

Sənədlər 5 aprel 2018-ci il tarixdən 14 may 2018-ci il tarixədək saat $9^{00}$-dan $18^{00}$-dək Naxçıvan Qızlar Liseyində qəbul edilir.

İmtahan 27 may 2018-ci il tarixdə Naxçıvan Dövlət Texniki Kollecinin binasında keçiriləcəkdir. İmtahana buraxılış vərəqələrini 15 may 2018-ci il tarixdən 26 may 2018-ci il tarixədək Naxçıvan Qızlar Liseyindən əldə edə bilərsiniz.

**Qeyd:** Liseyin V sinfinə qəbul olmaq istəyən şagirdlər Azərbaycan dili, riyaziyyat və məntiqdən, VI, VII, VIII siniflərə qəbul olmaq istəyən şagirdlər isə Azərbaycan dili, riyaziyyat və ingilis dili fənlərindən imtahan verəcəklər.

***Ünvan:** Naxçıvan Qızlar Liseyi, İ.Məmmədov 2.*
***Əlaqə telefonları:** (036) 545-03-47, (036) 545-23-62*

---

## İşəgötürənlərin nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Əmək müqaviləsi bildirişinin formaları və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları"na, həmçinin "İş sahələrində əməyin mühafizəsi norma və qaydalarına əməl edilməsi"nə dair ikigünlük maarifləndirici seminarlar təşkil edilir.

Seminarlarda iştirak etmək istəyənlər Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə müraciət edə bilərlər.

*Ünvan: Heydər Əliyev prospekti 42 (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin inzibati binası)*
*Telefonlar: (036) 545-32-99, 544-09-59*

---

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 260